**UOT: 781.**

**Sevil Ələkbərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: sevil.alekberova@list.ru**

# MÜASİR TAR İFAÇILIĞINDA TARZƏN VAMİQ MƏMMƏDƏLİYEVİN ROLU

**Xülasə:** Məqalədə Azərbaycan musiqi mədəniyyətində tar alətinin rolu haqqında məlumat verilir, tarzən Vamiq Məmmədəliyevin həyat və yaradıcılığından, onun ustadlarından bəhs edilir. Eyni zamanda onun iştirak etdiyi festivallardan, simpoziumlardan söhbət açılır. Müəllifi olduğu rəng və diringilər, elmi araşdırmaların nəticəsi olan kitablarının adları qeyd olunaraq tarzənin yaradıcılğını necə zənginləşdirdiyinə toxunulur.

**Açar sözlər**: tar, muğam, tarzən, ifaçılıq.

Azərbaycan musiqi mədəniyyətinin maraqlı sahələrindən biri də ifaçılıq (sazəndəlik) sənətidir. Xalq musiqisinin qədim və zəngin ənənələri üzərində qurulmuş ifaçılıq sənətinin tarixi əhəmiyyəti çox böyükdür. Tarixi məlumatlardan aydın olur ki, bir çox görkəmli şəxsiyyətlər həm də müxtəlif musiqi alətlərinin mahir ifaçıları olmuşlar. İfaçılıq sənəti tarixən inkişaf etmiş, texniki, bədii baxımdan təkmilləşərək müasirləşmişdir. Əsası Ü.Hacıbəyov tərəfindən qoyulmuş notlu ifaçılıq məktəbi tarın texniki və bədii imkanlarını daha da artırmışdır. XIX əsrin ikinci yarısından başlayaraq Bakı, Şamaxı və Qarabağda keçirilən musiqi məclisləri xanəndəliklə yanaşı, sazəndəlik sənətini də yeni inkişaf mərhələsinə qaldırmış və bir çox məşhur ifaçıların yetişməsinə səbəb olmuşdur. Bunlardan XIX-XX əsrlərdə fəaliyyət göstərmiş Mirzə Sadıq Əsədoğlunu, Məşədi Cəmil Əmirovu, Bəhram Mənsurovu, Əhməd Bakıxanovu, Qurban Pirimovu, Mənsur Mənsurovu və ifaçılıq sənətinin parlaq nümayəndələri olan bir çox başqa sənətkarları nümunə göstərmək olar. Belə ki, 1931-ci ildə Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin təşəbbüsü ilə yaradılmış ilk notlu xalq çalğı alətləri orkestrində tar aparıcı alət kimi əsas yeri tutmuşdur.

XX əsrin ikinci yarısında xüsusilə tar və kamança ifaçılığı daha yüksək inkişaf mərhələsinə qədəm qoymuş Əhsən Dadaşov, Baba Salahov, Hacı Məmmə-

dov, Həbib Bayramov, Ramiz Quliyev, Möhlət Müslimov, Ağasəlim Abdullayev, Habil Əliyev, Şəfiqə Eyvazova, Munis Şərifov, Fəxrəddin Dadaşov və bir çox peşəkar ifaçılar bu alətlərin çalğı texnikasını, ifaçılıq imkanlarını daha yüksək səviyyəyə qaldırmışlar.

Musiqi nümunələrinin insanların yaddaşında qalması üçün, onların kim tərəfindən ifa edilməsi, yəni tamaşaçıya hansı formada təqdim olunması əsasdır. Əgər musiqi tamaşaçıya peşəkar ifaçı tərəfindən təqdim edilirsə, o zaman hansı dövrdə ifa olunmasından asılı olmayaraq, insanların qəlbində əbədi yaşayacaq və mənəvi zövq bəxş edəcək. Uzun illərdir, hər şeydən təcrid olunaraq musiqi meydanına atılan və tarı dilləndirərək, ifası ilə klassik musiqi irsimizə yeni bir ruh gətirən peşəkar ifaçılardan biri də tarzən, Azərbaycanın xalq artisti Vamiq Məmmədəliyevdir.

Vamiq Məmmədəliyev 1946-cı il iyun ayının 9-u Bakının Kürdəxanı qəsəbəsində ziyalı ailəsində anadan olub. 1953-1964-cü illərdə 113 nömrəli Kürdəxanı kənd məktəbində orta təhsil alıb. İbtidai musiqi təhsilini kənd klubunun tar dərnəyini aparan Dərdayıl Əmirovun sinfində alıb. Burada o, “Bahar” adlı ansambl yaratmışdır. 1965-1967-ci illərdə hərbi xidmətdə olub. Öz xidməti borcunu yerinə yetirdikdən sonra isə Mədəni-Maarif Texnikumunun Kitabxanaçılıq fakültəsində təhsil alıb. Lakin musiqiyə, xüsusən də tara olan məhəbbəti onu 1972-ci ildə Asəf Zeynallı adına Musiqi Texnikumuna gətirir. Vamiq Məmmədəliyevin tara məhəbbəti evlərindəki musiqi məclislərindən, tanınmış sənətkarların Məmmədəliyevlər ailəsi ilə yaxınlığından başlayıb. Musiqi savadı artdıqca tara sevgisi də artıb. 1980-1985-ci illərdə Üzeyir Hacıbəyli adına Dövlət Konservatoriyasında tar üzrə ali təhsil alan V.Məmmədəliyev bu tədris ocaqlarında Bəhram Mansurov, Əhməd Bakıxanov, Hacı Məmmədov, Adil Gəray, Oqtay Quliyev, Sərvər İbrahimov kimi böyük sənətkarlardan muğamın sirlərini, ifa texnikasını və xanəndəni müşayiət formalarını mənimsəyib. 1985-ci ildə Konservatoriyanı bitirən Vamiq Məmmədəliyev gərgin əməyi nəticəsində o, tarda Azərbaycan və xarici ölkə bəstəkarlarına məxsus ifaçılıq vərdişlərinə yiyələnir. Lakin Vamiq Məmmədəliyevin professional ənənəli musiqinin zirvəsi olan muğam sənətinə vurğunluğu onun ifaçılıq fəaliyyətini bu sənətə bağlayır.

V. Məmmədəliyev bir ifaçı kimi muğam ustadlarımızdan – Mirzə Sadıq Əsəd oğlu, Mirzə Fərəc Rzayev, Mirzə Mənsur Mənsurov, Qurban Pirimov, Əhməd Bakıxanov, Bəhram Mənsurov, Hacı Məmmədov, Əhsən Dadaşov, Əliağa

Quliyev, Həbib Bayramov, Kamil Əhmədov, Sərvər İbrahimov, Firudin Yarməmmədov və digər sənətkarların ifaçılıq xüsusiyyətlərindən bəhrələnərək muğamların interpretasiyası baxımından öz ifaçılıq üslubunu yaratmış sənətkardır. V.Məmmədəliyevin yaradıcılığı haqqında danışarkən onu da qeyd etmək lazımdır ki, Azərbaycan bəstəkarlarının, dünya musiqi nümunələrini vaxtilə ifa etsə də, o, əsasən muğam ifaçılığı sahəsində xalqımız tərəfindən tanınıb sevilir. O, ustadlarından öyrəndiyi ifaçılıq üslubunu fərqli çalar, yeni nəfəslə özünəməxsus tərzdə muğam sənətinə gətirmişdir.

Azərbaycan ifaçılıq sənətində öz yeri, dəsti-xətti olan Vamiq müəllim qədim alət olan tarımızı müxtəlif ölkələrdə də əzmlə dilləndirmişdir. Belə ki, 1989-cu ildə İsveçin Falun şəhərində keçirilən Folklor festivalından dəvətlər almış, İran, İraq, Türkiyə və Rusiyanın bir çox şəhərlərində qastrol səfərlərində olmuşdur. Bütün bunlar Vamiq müəllimin sənət taleyinin uğurlu səhifələridir. 1994-cü ildə Fransanın "Maison Des Cultures Du Monde" şirkəti V.Məmmədəliyevin ifasında Nəva və Rahab muğamlarını və onun müşayiətilə Qəndab Quliyeva və Canəli Əkbərovun ifasını lentə alır. Bu lent yazılarında Vamiq Məmmədəliyevin təfsir xüsusiyyətlərində klassik muğam ifaçılığına məxsus aydınlıq, mizrab üsulları (ştrixlər), musiqi cümlələrində ənənəvi improvizələr, Azərbaycan musiqisi üçün səciyyəvi olan məqam intonasiyaları-tar alətində muğam ifaçılığında işlənən yarım pərdələrdən (1/3, 1/4 tonlar) düzgün istifadə etmək məhz onun ifasında qabarıq şəkildə özünü büruzə verir. Biz Vamiq Məmmədəliyevin yozumunda əsl Azərbaycana xas muğam dinləyirik. Vamiq Məmmədəliyevin ifa etdiyi hər muğam zahiri effektdən uzaqdır. O, muğamın daxili aləminə dərindən nüfuz edir, onu müdrik düşüncə tərzi və emosional cəhətlərlə ustalıqla uzlaşdıraraq dinləyicini muğamın sirli aləminə cəlb edir. Habelə tarzənin muğam ifaçılığında barmaq və mizrablar muğamın bədii emosionallığı, obrazla məzmunun dinamikcəsinə açılmasına yönəlmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Vamiq Məmmədəliyevin ifasında bir neçə muğam özünəməxsus təfsirini tapmışdır ki, bunlardan biri də "Hümayun" muğamıdır. "Hümayun" muğamı 1986-ci ildə lentə alınmış, ifa müddəti 8.51 saniyədir. "Hümayun" muğamı "Bərdaşt" ilə başlayır, ardınca "Mayə", "Bəxtiyari" (mayənin tərkibinə daxil olan guşədir), "Feili", "Möləvi", "Tərkib", "Bidad", "Kiçik məsnəvi" və "Hümayuna ayaq" (kadensiya) ifa olunaraq tamamlanır. Bu lent yazısında Vamiq Məmmədəliyev "Feili" şöbəsinin tərkibinə daxil olan "Bö-

yük məsnəvi" və "Mөləvi" guşəsindən sonra "Şüştər" şöbəsi çalmayıb.

Zəngin axtarışlar, yorulmaq bilməyən çalışmalar, usanmazlıq, bütün bu kimi keyfiyyətlər ustad Vamiq müəllimi sənətin zirvəsinə yüksəltmişdir. Belə ki, Vamiq Məmmədəliyev yaradıcı tarzəndir. Tarzənin muğam ifaçılığının dərinliklərinə bələd olması, onun hər detallarını sonuna qədər bilməsi özünün müəllifi olduğu rəng və diringiləri bir daha sübut etmişdir. Tarzən 20-yə qədər rəng və diringilərin müəllifidir ki, bunlardan "Bayatı-Şiraz", "Nəva", "Şikesteyi-fars", "Şur", "Segah" və s. rəngləri misal göstərə bilərik.

Vamiq müəllimin yaradıcılığında ifaçılıqla yanaşı, pedaqoji və elmi fəaliyyət də geniş yer tutur. Belə ki, o 1972-1993-cü illərdə Mədəni-Maarif Texnikumunda ixtisas müəllimi, 1988-2001-ci illərdə Bakı Musiqi Akademiyasında baş müəllim-dosent kimi fəaliyyət göstərmişdi. 2001-ci ildə isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Musiqi sənəti fakültəsi açılır və Vamiq müəllim həmin fakültəyə dekan dəvət edilir. Yeri gəlmişkən onu da deməliyik ki, milli və professional musiqimizin təbliğində bu universitetin mühüm əhəmiyyəti var. Musiqi sənəti fakültəsində çalışan görkəmli sənətkarlarımızın sayəsində gənclər milli və professional musiqimizin sirlərinə yiyələnirlər. Vamiq müəllim də bu işdə həmkarları ilə birlikdə böyük səylər göstərir. O, bir çox elmi məqalələrin, tədris proqramlarının, metodiki tövsiyələrin və müxtəlif mətbuat səhifələrində dərc olunan yazıların da müəllifidir.

Vamiq Məmmədəliyev həmçinin elmi araşdırmalara da böyük maraq göstərmişdir. Belə ki, onun tar alətinin tədrisinə dair yazdığı "Tar ifaçılığında instrumental muğamların interpretasiya məsələləri" adlı metodik tövsiyə, "Xalq çalğı alətlərinin öyrənilməsi fənn üzrə", Abbasqulu Nəcəfzadə ilə birgə yazılmış "Muğam" adlı dərs vəsaiti də bu qəbildəndir. Bu elmi əsərlərdə Azərbaycan xalq çalğı alətləri kontekstində tar aləti ifaçılığının geniş şəkildə nəzəri-ifaçılıq yolları araşdırılaraq muğamların tədris olunma üsulları olduqca məntiqli şəkildə, anlaşıqlı tərzdə izah edilir. Fikrimizcə, belə istiqamətli fəaliyyəti ilə V.Məmmədəliyev muğam nəzəriyyəsini zənginləşdirməklə yanaşı, həm də musiqişünaslıq elminə dəyərli töhfələr vermişdir.

Ölkəni qarış-qarış gəzən, bütün zonalarda – istər müharibə bölgəsində, istərsə də dinc rayonlarda keçirilən konsertlərdə iştirak edən Vamiq Məmmədəliyev ümumiyyətlə Azərbaycanın muğamsevərləri, ziyalıları arasında yaxşı tanınır. 2005-ci ildə ulu öndərin adını daşıyan "Heydər Əliyev Fondu"nun pre-

zidenti Mehriban xanım Əliyevanın fəaliyyət proqramına daxil olan Azərbaycan muğamları layihəsinin müzakirəsi zamanı Vamiq Məmmədəliyev yaxından iştirak edərək öz arzu və tövsiyələrini sənət yoldaşları ilə bölüşür. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə ərsəyə gələn "Qarabağ xanəndələri" layihəsi Azərbaycan musiqi mədəniyyətinin inkişafında daha bir addım oldu. Vamiq Məmmədəliyev respublikada keçirilən müsabiqələrdə münsiflər heyətinin üzvü və sədri kimi də fəal ziyalı mövqeyini nümayiş etdirir. Bir sözlə musiqidən, qəzəliyyatdan, muğamlardan bəhs edən mədəni tədbirləri, xatirə gecələrini, məclisləri Vamiq müəllimsiz təsəvvür etmək qeyri-mümkündür. Ölkə başçısı cənab İlham Əliyevin 16 sentyabr 2006-cı il tarixli 1673 saylı sərəncamında fəxri adlar siyahısında Vamiq Məmmədəliyevin adının olması tarzənin 60 illik yubileyinə töhfə oldu. Kollektivdə sərbəst ünsiyyət, yaradıcı mühit, gənc musiqiçilərin yetişməsi, onların ifaçılıq üslublarının cilalanması, sağlam rəqabət Vamiq Məmmədəliyevin kredosudur. Bir sözlə, Vamiq Məmmədəliyev öz dünyası, öz yaradıcılıq xüsusiyyətləri, elmi və pedaqoji fəaliyyəti ilə öz üslubunu yaradan, öz mövqeyində duran sənətkar və şəxsiyyətdir.

**Ədəbiyyat siyahısı:**


1. Kaspi qəzeti - "Həm müəllim, həm ifaçı" 25.09.2021
2. Mədəniyyət jurnalı "Xalqın dəyərləndirdiyi sənətkar: tarzən Vamiq Məmmədəliyev" (müəllif: Təhminə) 27.01.2016
3. Paritet qəzeti, 2010. 11-12 mart, səh. 13
4. https://525. az/news/172738-sexsiyyeti-ile-de-ornek-olan-senetkar-yubiley-yazisi
5. https://kaspi. az/az/hem-muellim-hem-ifaci
6. https://medeniyyet. az/page/news/16010/Ruhumuzu-ovunduran-ustad.html

**Севиль Алекберова**

**РОЛЬ ТАРИСТА ВАМИКА МАМЕДАЛИЕВА В СОВРЕМЕННОМ ТАРОВОМ ИСПОЛНИТЕЛЬСТВЕ**

**Резюме**: Статья посвящена научному исследованию роли тара – народного музыкального инструмента, который занимает центральное место в азербайджанской инструментальной музыкальной культуре. Подвергаются научному исследованию эпизоды жизни и творчества известного тариста Вамига Мамедалиева и его учителей, стоявших у истоков формирования его музыкального мировоззрения и навыков. Затронута роль фестивалей и научных симпозиумов, в которых он принимал участие. Упоминаются его специфические музыкальные сочинения, обогатившие жанровое многообразие азербайджанской народной музыки. Приведены имена его книг, ставшие результатом многолетних научных исследований, подчеркнуто, как научное творчество знаменитого мастера тара и ученого-музыковеда обогатило в целом музыкальное искусство Азербайджана, а также его индивидуальный творческий стиль.

**Ключевые слова**: тар, мугам, тарист, исполнительное мастерство.

**Sevil Alakbarova**

**THE ROLE OF TAR PLAYER VAMIG MAMMADALIYEV IN MODERN TAR PERFORMANCE**

**Summary:** This article is about tar musician - Vamig Mammadaliyev's biography and his masters. Moreover, there is information about the contests and symposiums he has attended. In addition, “rang and diringi”, the names of the books which are the results of his academic researches have been mentioned here in order to demonstrate their profound roles in tar musicians's career.

**Key words**: tar, mugam, tarzen, performance.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**